II yazı

# Azərbaycan – Türkiyə: dövlətlərarası münasibətlərin yüksək səviyyəsi media qurumları üçün də örnəkdir

*Qardaş Türkiyədə ilahi gözəlliklərin baş-başa verdiyi Egey bölgəsi haqqında uzun illər heyranlıqla yazanlardan biri də mən olmuşam. Bu hədsiz maraq zaman ötdükcə nəinki azalmayıb, bəlkə, bir az da artıb. Doğrudan da, Türkiyənin 3-cü böyük şəhəri olan İzmirin tarixi zənginliklərinə, təbii gözəlliklərinə valeh olmamaq, Şirincə, Foca, Çeşmə, Alaçatı və saymaqla bitməyən turizm ünvanlarının bənzərsiz görüntüləri və mədəni dəyərləri önündən heyrətlənmədən keçmək mümkün deyil.*

*Bu bölgədə hər addımda dünya sivilizasiyasının inciləri ilə rastlaşırsan. Antik Efes və Məryəm Ana kimi tarixi məkanlar, dünyanın 7 möcüzəsindən biri olan Artemis məbədi də İzmirdədir. Bu şəhərin 3 milyondan çox əhalisi, 8 min 500 illik tarixi var. İzmir tarixi mənbələrdə Homerin vətəni kimi də təqdim olunur. Makedoniyalı İsgəndərin də burada ayaq saxlayıb şəhəri yenidən dirçəltdiyi söylənilir.*

*İzmir çağdaş günlərin ziyalılar şəhəridir. Onun cox mehriban və diqqətcil insanlarının Türkiyə Cümhuriyyətinin qurucusu Atatürkə məhəbbəti hər addımda hiss olunur. Böyük Mustafa Kamalın şəhərin Qaziəmir səmtində təbii qayada yonulmuş əzəmətli büstü, Ankara tərəfdən girişdə isə möhtəşəm heykəli var. Şəhərin mərkəzində və meydanlarında bir-birinə bənzəməyən abidələri də bu dahi şəxsiyyətin böyüklüyünə olan ehtiramın göstəricisidir. Az qala, bütün bina və mənzillərdən asılan Türkiyə bayraqları isə təkcə göz oxşamır, həm də insanların öz dövlətlərinə və bayraqlarına olan sevgisinin ifadəsidir.*

*Turistləri hər zaman heyrətləndirən İzmir azərbaycanlılar üçün də doğmadır. Adətən, bu şəhəri Bakıya çox oxşadırlar. O da Bakı kimi dənizsahili və küləklər şəhəridir. Azərbaycanın xaricdə ən böyük sərmayəsi olan Petkim, STAR da bu bölgədə yerləşir.*

*Budəfəki səfərimdə İzmirdə çalışan həmkarlarımla – jurnalistlərlə görüşmək qərarına gəldim: onların həyat və yaradıcılığı ilə tanış olmaq, Azərbaycan haqqında fikirlərini öyrənmək maraqlı idi. Qeyd edim ki, İzmirdə 10-dan çox qəzet nəşr edilir. Türkiyənin ən köklü qəzeti olan "Yeni Əsr"in ünvanı da İzmirdir. Beləliklə...*

## İzmirli jurnalistlərin Azərbaycan düşüncələri...

13 minə qədər jurnalisti birləşdirən İzmir Jurnalistlər Cəmiyyəti Türkiyənin nüfuzlu və peşəkar media qurumlarından biridir. Cəmiyyətin 17-ci rəhbəri Dilək xanım Gappi Umdular ölkə jurnalistlərinin kifayət qədər yaxşı tanıdığı və hörmət bəslədiyi simadır. Keçən ilin yayında bu vəzifəyə seçilən Dilək xanımın rəhbərlik etdiyi heyətin qısa müddətdə gerçəkləşdirdiyi layihələr Egey bölgəsi jurnalistlərinin peşəkar fəaliyyətinə yeni yön verib, media aləminin demokratik mənzərəsinə əlavə çalarlar gətirib.

Cəmiyyətin Egey dənizi sahilində yerləşən birmərtəbəli binasının təkcə görkəmi yox, həm də içərisindəki xoş aura ilk andanca adamda bir rahatlıq yaradır. Olduqca sadə və hər cür dəbdəbədən uzaq, böyük salona bənzəyən bu qərargahda hədsiz səmimiyyətlə, uzun illərin tanışı kimi qarşılanmağımı mən də eyni dərəcədə xoş duyğularla qəbul etdim.

Dilek Gappi İzmirdə doğulub, İzmir qız liseyini və Egey Universitetinin Mətbuat və Yayım Məktəbini bitirib, ali təhsilini İstanbul Universitetində tamamlayıb. İzmir Böyükşəhər Bələdiyyəsinin mətbuat təmsilçiliyi ilə başladığı peşəkar fəaliyyətini müxtəlif media vasitələrində davam etdirib. "Hürriyyət", "Gözləm"qəzetlərində məsul vəzifələr tutub. Sonra "Milliyyət" qəzetinin Egey bölgəsi üzrə koordinatoru olub. Dilək xanım "Ege TV", "Yeni Asır TV" və "TRT" televiziya və radiolarında iqtisadi və gündəm proqramlarımana müəllifik edib. "Habertürk"ün Egey əlavəsində köşə yazarı kimi fəaliyyətini davam etdirib. Jurnalist fəaliyyəti bir çox mükafatlara layiq görülmüş Dilək xanım 2021-ci ilin iyununda İzmir Jurnalistlər Cəmiyyətinin rəhbəridir. İngilis və italyan dillərini bilir. Bir övladı var.

**Qısa tanışlıqdan sonra Dilək xanım bildirdi:**

– Ölkəmizin ən böyük, hörmətli yazarlar təşkilatı olan İzmir Jurnalistlər Cəmiyyəti gücünü çoxillik təcrübəsindən, yaratdığı ənənədən və peşəkar, demokratik dəyərlərə sayğı ilə yanaşan üzvlərindən alır. Cümhuriyyətin təməl prinsiplərini fəaliyyətimizdə əsas olaraq qəbul etmişik. Media və söz azadlığını, demokratik hüquqi dövlət anlamını, həmkarlarımızın hüquq və vəzifələrini müdafiə etməyi özümüzün əsas vəzifəmiz hesab edirik. Cəmiyyətimiz bundan sonra da bu əqidə və hədəflərini pozmadan yoluna davam edəcəkdir. Cümhuriyyətin qurucusu Mustafa Kamal Atatürkün dediyi kimi, mətbuat heç bir səbəbdən təsirə məruz qala bilməz.

**– Bu gün cəmiyyətin yaşadığı böhran, yəqin ki, bölgə jurnalistlərindən də yan keçməyib.**

– Şübhəsiz, biz də cəmiyyətin bir hissəsiyik və gündəlik həyatımızda baş verənlər hər kəsə olduğu kimi, jurnalistlərə də təsiri var. Yəni, əslində, bu barədə ictimaiyyəti xəbərdar edən jurnalistlərin özlərinin də bu təsirlərdən yayınması mümkün deyil. İlk olaraq, onu deyim ki, İzmir Jurnalistlər Cəmiyyəti sədrliyinə növbəti seçkilər keçiriləndə jurnalistlərimizin uğurlu fəaliyyətini təmin etmək üçün üzvlük haqqının 48 lirədən 96 lirəyə yüksəldilməsi təklif edildi və səs çoxluğu ilə qəbul edildi.

Cəmiyyətimiz həftəlik "Doquz Eylül" qəzetini nəşr edir. İzmirin ictimai-siyasi həyatını, eləcə də jurnalistlərimizin uğur və çətinliklərini özündə əks etdirən qəzet oxucularımız tərəfindən maraqla qarşılanır. Qəzetin qurumumuzu düşündürən və narahat edən ən ciddi problemlərə həsr edilən əlavələrini də müntəzəm olaraq nəşr edirik. Davamlı qiymət artımları yerli mətbuatın durumunu da getdikcə ağırlaşdırır. Bu vəziyyət cəmiyyətimizi də ciddi düşündürür. İlin başlanğıcında İzmir mediasının 2 nümayəndəsi ilə birlikdə Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin rəisi Fəxrəddin Altunla görüşdük, artan kağız və digər maliyyə xərclərinin ağırlığından nəfəs ala bilməyən yerli mətbuatın vəziyyətini ona çatdırdıq.

Bildirdim ki, son zamanlar pandemiyanın yaratdığı problemlər, valyuta məzənnəsinin qeyri-sabitliyi və xərclərin artması, məsələn, qəzet kağızının qiymətinin yüksəlməsi, minimum əmək haqqının artırılması və s. poliqrafiya sənayesinə də mənfi təsir göstərib. Qəzet kağızı ilə təminatda ciddi problemlər yaranıb. Bu səbəbdən yerli qəzetlərə Mətbuat Elan Qurumu (Basın İlan Kurumu) tərəfindən verilən rəsmi reklamların qiymətlərinin artırılmasına, 2022-ci ildə yerli mətbuatın normal yaşaması üçün operativ qərarların qəbul edilməsinə ehtiyac duyulur. Bunun üçün mənim də üzvü olduğum Mətbuat Elan Qurumunun ən qısa zamanda toplanmasını və mətbuatın vəziyyətini dəstəkləyən qərarlar verilməsini gözlədiklərimizi Fəxrəddin bəyə bildirdik. Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin rəisi yerli mediaya önəm verdiklərini, problemləri həll etməyə çalışdıqlarını bildirdi.

**– Əslində, bu gün dünyada baş verənlər belə böhranların əsas mənbəyidir. İnanırıq ki, tarixin çox çətin imtahanlarını arxada qoyan qardaş Türkiyə və onun jurnalistləri bu sınaqlardan da güclü çıxacaq. Məni belə bir zamanda bir sual da düşündürür: hazırda Azərbaycan Türkiyədən necə görünür?**

– Azərbaycan–Türkiyə birliyi, həmrəyliyi bu günün, dünənin dostluğu deyil. Azərbaycanın müstəqilliyini ilk tanıyan Türkiyə təmsil olunduğu bütün beynəlxalq təşkilatlarda qardaş ölkənin mövqeyini daim dəstəkləmişdir. Uzun illər Azərbaycanın ərazi bütövlüyünün qorunması istiqamətində göstərdiyi səylər qardaş dəstəyi olmaqla Türk dünyasının birliyi və həmrəyli yolunda atılan ciddi siyasi addımlardır. Azərbaycanın iqtisadi müstəqilliyi Türkiyənin beynəlxalq aləmdəki rolunun güclənməsini təmin edən başlıca amillərdəndir. Enerji strategiyası təkcə Azərbaycanın deyil, qonşularımızın və Türkiyənin də iqtisadiyyatını canlandırmağa yönəldilib. Enerji təhlükəsizliyinin təminatında böyük rolu olan Türkiyə və Azərbaycanın gələcəkdə daha böyük layihələrin təşəbbüsçüsü olacaqlarına böyük ümidlər var.



Bu yerdə əvvəllər də müsahib olduğum Sərxan bəy də söhbətə qoşulur:

**– Dilək xanım çox doğru qeyd edir.** Türkiyə ilə Azərbaycan birliyi təkcə xalqlarımız üçün deyil, bölgə üçün, dünya üçün çox böyük önəm daşıyır. Bizim siyasətimiz əməkdaşlığa, ölkələr arasındakı işbirliyinə hesablanıb. Azərbaycanın Qarabağdakı tarixi Zəfərindən sonra başlanan yeni dövr bu üfüqləri daha da genişləndirib. Şuşa Bəyannaməsi Azərbaycan–Türkiyə münasibətlərinin müttəfiqlik səviyyəsinə yüksəltməklə Türkiyəni Qafqazdakı sülh və inkişafın qarantına çevirib. Bəyannamənin Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanması, ölkələrimizin parlamentləri tərəfindən təsdiq olunması ilə iki qardaş dövlət arasında müttəfiqlik münasibətlərinin yeni dövrü başlandı.

Zəngəzur dəhlizinin açılışı Anadolunu da çoxşaxəli istehsal məkanına çevirəcək və bütün Türk dünyasının həyatına yenu dinamizm gətirəcək. Azərbaycandan danışanda bir önəmli faktı da unutmaq olmaz: Azərbaycan Ordusu 44 gündə böyük bir Zəfər tarixi yazdı. Vətən müharibəsi 44 gün davam etsə də, bu hərbi-siyasi qələbədən uzun illər sonra da danışılacaq. Bu çətin məqamda da Azərbaycan–Türkiyə birliyi sarsılmazlığı ilə diqqətdə oldu. Müharibənin ilk günündən Türkiyə dövləti və türk xalqı Azərbaycanın tək olmadığını, müqəddəs savaşa qalxmış qardaşlarımızın yanında olduğunu bildirdi. Azərbaycan Ordusunun Qələbəsinin dünyaya təqdimatı olan Bakı Zəfər paradını da türk xalqı birlik, həmrəylik nümayiş etdirərək öz təntənəsi kimi yaşadı.

**– Dövrümüzün bu tarixi hadisələri barədə xəbərləri ictimaiyyətə çatdıran siz jurnalistlərin göstərdiyi fədakarlıq və həmrəylik, ümumiyyətlə, hərtərəfli münasibətlərimizin yüksək səviyyəsi Azərbaycanda hədsiz razılıqla qarşılandı.**

**Dilək xanım Gappi:**

– Dövlətlərimiz tərəfindən bu əlaqələrin qurulmasına və davam etdirilməsinə ciddi dəstək verilir. Müharibə dövründə Türkiyə mediası Azərbaycanın haqlı mövqeyini dəstəkləyənlər və dünyaya tanıdanlar sırasında öndə getdi və inamla demək olar ki, informasiya cəbhəsində olan bu xidmət cəbhədəki fəaliyyət qədər gərəkli oldu. Mediadan aldığım məlumatlara əsasən, deyə bilərəm ki, Azərbaycanlı jurnalistlər Türkiyədə dəfələrlə rəsmi səfərlərdə olublar və rəsmi qaydalarda fikir mübadilələri də aparıblar. Təbii ki, bunlar qardaş ölkə ilə əlaqələrin inkişafında xüsusi önəm daşıyır.

Amma yerli mətbuatın əlaqələri zəifdir və deyərdim ki, bəlkə də, yox səviyyəsindədir. İzmirli jurnalistlərin təcrübəsində bu olmayıb, hətta deyərdim ki, bu barədə söhbət etdiyimiz ilk həmkarımız sizsiniz. Düşünürəm ki, azərbaycanlı həmkarlarımızla əlaqələrin qurulması olduqca vacibdir. Bu, həm də yeni bir inkişaf mərhələsini yaşayan Türk dünyası üçün çox lazımdır. Mətbuat ortada olan böyük uğurların tanıdılması baxımından gərəkli olduğu qədər də problemlərin ortaya qoyulmasında və həllində təsirli vasitədir.

**Sarkan Aksuyek:**

– Əslində, bu gün dünya çox kiçilib, kürəmizin o başında baş verən hər hansı bir hadisə ilə tanış olmaq üçün günlər yox, dəqiqələr, saniyələr bəs edir. İndi texniki imkanlar o qədər zəngindir ki, bir məsələ haqqında məlumat almaq üçün gündəlik informasiya vasitələrini izləmək də bəs edir. Mən Azərbaycana, orada baş verənlərə ciddi maraq göstərdiyimdən Azərbaycan Televiziyasının, xüsusən də AzTV-nin verlişlərini izləyirəm. Hadisələrə dövlətçilik, Türk dünyasının maraqları baxımından yanaşma məni çox təmin edir. Xüsusən, Zəngəzur məsələsinin mahiyyət və dəyəri haqqında açıqlamalar çox zəngin təəssürat yaradır.

Həmin mövzunun Azərbaycan Televiziyasında bu qədər əhatəli qoyulması və bu müzakirələrə həm siyasət adamlarının, həm də ziyalıların müntəzəm olaraq münasibət bildirməsi çox sevindiricidir. Amma gəlin, məsələyə bir az qlobal baxaq. Haqqında danışdığımız Zəngəzur dəhlizi Azərbaycan üçün nə qədər önəmlidirsə, cəsarətlə deyərdim ki, bütün Türk dünyası üçün də bir o qədər əhəmiyyətə və siyasi-iqtisadi dəyərə malikdir. Bəs onda Türkiyə mediası bu məsələlərin tanıdılmasında niyə imkanlarından tam istifadə etmir?! Ola bilsin ki, fikirlərimə etiraz edənlər də olsun.

Doğrudan da, Dilək xanımın dediyi kimi, Azərbaycan reallıqlarının dünyaya çatdırılmasında Türkiyə mediasının əvəzsiz xidmətləri oldu. Bu faktlar xüsusən də 44 günlük Qarabağ müharibəsi dövründə özünü göstərdi və təsdiq etdi. Təbii ki, belə də olmalı idi. Azərbaycanın tarixi qələbəsi, əslində, bütün Türk dünyasının qələbəsi idi. Amma bu gün də informasiya mübarizəsi davam edir. Eləcə də Zəngəzur dəhlizinin açılması günümüzün əsas məsələsidir. Bu tək Azərbaycanın yox, eləcə də Türkiyə mediasının önəmli mövzusu olmalıdır. Açıq deməliyik ki, Azərbaycan–Türkiyə dövlətlərarası münasibətləri elə bir zirvədədir ki, onun siyasi, iqtisadi, strateji tərəfləri olduqca geniş müstəvidə özünü təsdiq edib. Arzu edərdik ki, bu zirvəni biz Azərbaycan–Türkiyə jurnalistlərinin, media qurumlarının da arasında görək.

**– Sizcə, bunun üçün nə etməliyik?**

**Dilək xanım Gappi:**

– Türkiyə mediasının təməl prinsiplərinə xüsusi əhəmiyyət veririk və onun inkişafı yolunda bütün imkanlarımızı səfərbər etməkdəyik. Bununla bərabər, hesab edirik ki, peşəkar həmrəylik və əməkdaşlıq daha da inkişaf etdirilməlidir. Beynəlxalq əlaqələrimizin genişləndirilməsində maraqlıyıq. Ən qısa zamanda Azərbaycanı görmək və ziyarət etmək istərdik. Qarşılıqlı məsləhətləşmələr nəticəsində Azərbaycan jurnalistləri ilə həyata keçirə biləcəyimiz layihələrin icrası həm bizim, həm də Türk dünyasının jurnalistləri üçün faydalı olar.

**Sarkan Aksuyek:**

– Necə deyərlər, velosiped icad etməyə ehtiyac yoxdur, dövlətlərarası münasibətlər elə yüksək səviyyədədir ki, bu amil həm jurnalislər üçün, həm də jurnalist təşkilatları üçün bir örnək olmalıdır. Azərbaycanda Mətbuat Şurası, Jurnalistlər Birliyi, MEDİA adlı dövlət qurumu var. Eləcə də çoxsaylı nəşrlər və internet saytları fəaliyyət göstərir. Məncə, bu media qurumları ilə əlaqələr yaratmaq, qarşılıqlı səfərlər təşkil etmək lazımdır. Qarabağa, Şuşaya getmək, 30 il qədər işğal altında olan torpaqlarda düşmənin qəddar əməllərinin, xarabalıqlara çevirdiyi kəndlərin, qəddarcasına dağıdılmış məzarlıqların, tarixi abidələrin, donuz tövlələrinə cevrilmiş müqəddəs məkanların vəziyyətini, yaxud indi Qarabağda həyata keçirilən quruculuq işlərinin vüsətinin nə qədər əhatəli olduğunu əyani görmək və bunları Türkiyə ictimaiyyətinə tanıtmaq hər bir mətbuat işçisinin arzusudur.

Füzuli Beynəlxalq Hava limanının açılışında Türkiyə Respublikasının Prezidenti Ərdoğan da iştirak edirdi. Cəmi 8 aya bu miqyasda işlərin görülməsi ciddi bir hadisədir. Həmin mərasimi ekranlardan çox həyəcanla izləmişik. Belə reallıqları gözlərimizlə görmək istərdik. Ola bilsin, bunları ezamiyyətlə, yaxud səfirliyə müraciət etməklə də həyata keçirmək olar. Amma belə səfərlərin əhatəli və davamlı olması üçün Azərbaycandakı həmkarlarımızın dəvətinə ehtiyac var.

**– Maraqlı söhbət üçün sağ olun. Ümid edək ki, bu məsələlər azərbaycanlı həmkarlarımız üçün də maraqlı olacaq.**

*Namiq ƏHMƏDOV,*
*"Xalq qəzeti"*

İzmir – Bakı